# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 67

**Bakı şəhəri** "06" sentyabr 2012-ci il

**"2012-ci ildə Səhiyyə Nazirliyinin tabeliyində olan ali təhsil və elmi - tədqiqat müəssisələrində doktorantura və dissertanturaya qəbul haqqında"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.07.2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturanın yaradılması və və doktoranturaya qəbul qaydaları"na uyğun olaraq və Azərbaycan Milli Elmlər Akademiyasının 30.08.2012-ci il tarixli 01-4/931 nömrəli məktubunu nəzərə alaraq, yüksək səviyyəli tibbi elmi kadrların hazırlanması məqsədilə

## ƏMR EDİRƏM :

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üzrə 2012-ci il üçün doktorantura və dissertanturaya qəbul planı təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Tibb Universitetinin, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektorlarına, Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat İnstitut və Mərkəzlərinin direktorlarına tapşırılsın:

2.1. doktoranturaya sənədlər "Tibb qəzeti"ndə dərc edildiyi gündən bir ay müddətində qəbul edilsin;

2.2. 2012-ci ildə doktorantura və dissertanturaya namizədlərin seçilməsi üzrə müsabiqə komissiyası yaradılsın;

2.3. doktoranturaya qəbul imtahanları və dissertanturaya qəbul 2012-ci ilin noyabr ayının 15-dək başa çatdırılsın və nəticəsi barədə hesabat 10 gün müddətində Səhiyyə Nazirliyinin Kadrlar, elm və təhsil şöbəsinə təqdim olunsun.

2.4. doktorantura və dissertanturaya daxil olanların dissertasiya mövzuları Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının müvafiq problem şurasında qeydiyyatdan keçməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasına təqdim edilsin.

3. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Z.Mustafayevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**